# TORPAQ, ONUN BECƏRİLMƏSİNDƏ VƏ MÜNBİTLİYİNİN QORUNMASINDA MÜASİR TEXNOLOGİYALARIN ROLU

**Aytəkin Hüseynova, Məryəm Bağırova**

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Gəncə*
*Ahuseynova516@gmail.com*

Torpaq bizim əsas və əvəzsiz sərvətimizdir. Ondan nə dərəcədə səmərəli istifadə olunmasından cəmiyyətin taleyi və xalq təsərrüfatının gələcək inkişafı asılıdır. Torpaq bütün ictimai formasiyalarda insana qüdrət, respublikaya bərəkət və cəmiyyətin inkişafına həlledici istiqamət vermişdir. Torpaq çox mühüm bir xassəyə - münbitliyə, bitki məhsulu yaratmaq qabiliyyətinə malikdir. Münbitlik bitkilərə lazım olan qida elementləri, su, işıq, istilik və havadan ibarətdir. Qida elementlərinin çox hissəsi torpağın mineral hissəsi aşınan zaman əmələ gəlir [1]. Torpağın münbitliyi bir çox səbəblərdən arta və ya azala bilər. Apardığımız elmi tədqiqat işinin əsas mahiyyəti münbitliyin və məhsuldarlığın artırılmasının öyrənilməsindən ibarətdir. Beləliklə, tədqiqatlardan da açıq görsənir ki, münbitlik və məhsulldarlığın yüksək olması bir-biri ilə sıx əlaqədardır. Ona görə də, məhsuldarlıqdan danışanda mütləq torpaq və onun düzgün becərilməsi işləri xüsusi öyrənilməlidir. Məhz bizim apardığımız tədqiqat işi torpağın su-fiziki xüsusiyyətlərini, kimyəvi göstəricilərini, torpağın əkin qatının təkibini və həmin tərkibə görə bitkinin tələblərinin öyrənilməsi ilə torpaqbecərmə və məhsuldar, sağlam bitki yetişdirilməsi arasındakı münasibətləri öyrənir. Bununla yanaşı biz torpağın da öz qüvvəsini vegetasiyanın sonunda öyrənirik. Bu həm vacib, həm də torpağa olunan təsirin mənfi xüsusiyyətlərini aradan qaldırmağa diqqəti yönəldir. Biz torpaqla ona zərər vermədən işləməyi qarşımıza məqsəd qoymalıyıq. Təkcə məhsul götüməklə deyil, eyni zamanda torpağın münbitliyini də qorumalıyıq.

Münbitliyin qorunması, həmişə kənd təsərrüfatında ən aktual mövzulardan biri olmuşdur. Zaman keçdikcə fikirlər inkişaf edir, müasir düşüncələr üstünlük təşkil edir. Demək olar ki, kənd təsərrüfatında yetərincə yeni ideyalar öz əksini tapır. Ağıllı kənd təsərrüfatı buna əyani sübutdur.

Dəqiq əkinçilik aqreqatın təkrar gedişlərinin, o cümlədən, enerji xərclərinin, aqrokimyəvi maddələrin, əmək sərfinin və məhsul itkisinin qarşısını almaqla bərabər, sudan və torpaqdan qənaətlə istifadəyə əsaslanır ki, bu da innovativ texnologiyaların tətbiqində müsbət nəticələr verir [2].

Dəqiqliklə tədqiqat işləri aparılmalıdır ki, nəticələr qənaətbəxş olsun. Tədqiqatların aparılması üçün torpaq nümunələri götürülür. Götürülmüş torpaq nümunələrində pH potesiometrdə, ümumi humus İ.V.Tyurinə görə, udulmuş ammonyak azotu D.P.Konevə, nitrat azotu Qrandval-Lyaju, ümumi azot, ümumi fosfor K.E.Ginzburq və Q.M.Şeqlova, mütəhərrik fosfor B.P.Maçiqin üsulu ilə, ümumi kalium Smitə, mübadiləvi kalium P.B.Protasov üsulu ilə alovlu fotometrdə təyin edilir [3].

**Ədəbiyyat siyahısı:**


1. Cəfərov M.İ. Torpağın münbitliyi bir çox səbəblərdən arta və ya azala bilər. Torpaqşünaslıq. Bakı: "Elm"-, 2005.

2. Qurbanov H. Dəqiq Əkinçilikdə Rəqəmsal Texnologiyalar. Gəncə, 2022.

3. Əliyeva A. Gəncə-Qazax bölgəsində soya bitkisinin becərmə texnologiyasının bəzi elementlərinin işlənib hazırlanması. Avtoreferat, Bakı-2017.